# İstanbulda Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli və ikitərəfli görüşləri olub

İstanbulda Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və Gürcüstanın xarici işlər naziri David Zalkaliani arasında üçtərəfli görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, nazirlərin sayca VII görüşü İstanbulun tarixi Dolmabaxça sarayında təşkil edilib.

Nazirlər görüşün yekunları ilə bağlı mətbuat konfransı keçiriblər.

Bu görüşün Türkiyə Respublikasının yaranmasının 95-ci ildönümünə təsadüf etdiyini diqqətə çatdıran nazir Mövlud Çavuşoğlu bildirib ki, tərəflər birgə həyata keçirilən iqtisadi layihələrin əhəmiyyəti, gündəlikdə duran digər məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparıblar. Nazir diqqətə çatdırıb ki, Türkiyə Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir. Bir daha bəyan edirik ki, mövcud problemlərin sülh yolu, beynəlxalq hüquq çərçivəsində sərhəd toxunulmazlığı ilə həll olunmasının tərəfdarıyıq və bu məsələlərdə Türkiyənin mövqeyi dəyişməzdir.

Türkiyə Respublikasının yaranmasının 95-ci ildönümü münasibətilə səmimi təbriklərini çatdıran Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində tutduğu ədalətli mövqeyə görə qardaş ölkəyə minnətdarlığını ifadə edib.

Azərbaycan, Türkiyə və Gürcüstanın birgə həyata keçirdikləri enerji və nəqliyyat layihələrindən danışan nazir Elmar Məmmədyarov diqqətə çatdırıb ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars və TANAP kimi layihələr böyük bir coğrafiya üçün xüsusi əhəmiyyət daşıyır.

Gürcüstanın xarici işlər naziri David Zalkaliani qeyd edib ki, tərəflər arasında keçirilən üçtərəfli görüşlər əməkdaşlıq əlaqələrinin inkişafını daha da sürətləndirir. Hər üç ölkə sülhə, sabitliyə, əməkdaşlığa və inkişafa xüsusi önəm verir.

Nazirlər ifadə ediblər ki, görüşdə regional əməkdaşlığın ümumi maraqlar üzrə inkişaf perspektivləri, regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, həmçinin əvvəlki görüşlərdə qəbul olunan qərarların icra vəziyyəti müzakirə olunub.

Nazirlər jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

Görüşün nəticəsinə dair İstanbul Bəyannaməsi imzalanıb.

* * *

Azərbaycanın, Gürcüstanın və Türkiyənin xarici işlər nazirlərinin İstanbulda keçirilən 7-ci Üçtərəfli Görüşü çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki dost və qardaş dövlət arasında əməkdaşlığın bütün sahələrdə və müxtəlif formatlarda yüksək səviyyəli inkişafından, siyasi əlaqələrin strateji müttəfiqlik səviyyəsindən məmnunluq ifadə edilib. Nazirlər strateji tərəfdaşlıq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini qeyd ediblər.

Tərəflər hər iki ölkənin iştirakı ilə həyata keçirilən mühüm enerji, nəqliyyat, tranzit, logistika və digər layihələr ətrafında fikir mübadiləsi aparıblar. Nazirlər Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinin regionun inkişafına, insanlararası təmasların və ticarət dövriyyəsinin artmasına mühüm töhfə verəcəyinə əminliklərini bildiriblər. Azərbaycanın və Türkiyənin təşəbbüsü və iştirakı ilə həyata keçirilən regional layihələrin Asiya ilə Avropa arasında rəqabətədavamlı daşımaları asanlaşdıracağı xüsusi qeyd edilib.

Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar prosesi haqqında məlumat verən nazir Elmar Məmmədyarov Azərbaycanın substantiv danışıqlara hazır olduğunu bildirib. Nazir E.Məmmədyarov BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə zidd olaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun bütün region üçün ciddi təhlükə mənbəyi olduğunu vurğulayıb.

Görüşdə həmçinin elm, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

Azərbaycan.- 2018.- 30 oktyabr.- S.8.